*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 241-245* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.241*

## Jurnalistika

# İqlim jurnalistikası kommunikasiya vasitəsi kimi

**Almaz Nəsibova**
Filologiya üzrə fəlsəfə doktoru
E-mail: almazmahmud@gmail.com

**Annotasiya.** Ətraf mühit və ya ekosavadlılıq yer üzündə həyatı mümkün edən təbii sistemləri anlamaq bacarığıdır. Bu təbii sistemin insanlara, cəmiyyətlərə düzgün çatdırılmasında məhz jurnalistika, özü də iqlim (ətraf mühit və ya ekojurnalistika) jurnalistikası əvəzsiz rol oynayır. Çünki jurnalistika ciddi sosial, iqtisadi və siyasi dəyişikliklər yaratmaq gücünə və qabiliyyətinə malikdir. İqlim savadı olan insan Yer sisteminin əsas aspektlərini anlayan və etibarlı mənbəni etibarlı olmayan, saxta mənbədən ayıra biləndir. Ekosavadlılığı təhsil sistemlərinə daxil etməklə, planetimizdə məlumatlı və sadiq nəsil yetişdirilə və bununla da davamlı gələcək təmin edilə bilər.
**Açar sözlər:** ətraf mühit savadlılığı, iqlim jurnalistikası, ekosavadlılıq, iqlim böhranı, dezinformasiya

**Məqalə tarixçəsi:** göndərilib – 28.11.2024; qəbul edilib – 10.12.2024

# Climate journalism as communication tool

**Almaz Nasibova**
Doctor of Philosophy in Philology
E-mail: almazmahmud@gmail.com

**Abstract.** Environmental or ecological literacy is the ability to understand the natural systems that make life on Earth possible. Journalism, particularly climate journalism (environmental or ecojournalism), plays an invaluable role in accurately conveying these natural systems to individuals and societies. This is because journalism has the power to drive significant social, economic, and political changes. A climate-literate person understands the key aspects of the Earth's system and can distinguish reliable sources from unreliable or fake ones. By integrating ecological literacy into education systems, it is possible to raise an informed and committed generation on Earth, thereby ensuring a sustainable future.
**Keywords:** Environmental literacy, climate journalism, ecological literacy, climate crisis, disinformation

**Article history:** received – 28.11.2024; accepted − 10.12.2024

## Giriş / *Introduction*

Yer kürəsini canlı aləmi ilə birgə sürətlə məhvə doğru aparan qlobal ekoloji çatışmazlıq gündəmimizə “ekoloji təhsil savadlılığı”, “ətraf mühit savadlılığı”, “iqlim savadlılığı” kimi oxşar və məğzi eyni olan terminləri gətirib. Ekoloji savadlı olmaq ətraf mühit icmalarının, yəni ekosistemlərin necə təşkil olunduğuna dair prinsipləri başa düşmək və davamlı insan

icmaları yaratmaq üçün bu prinsiplərdən istifadə etmək deməkdir. Ekoloji savadlılıq insanların planetdəki hər şeylə – heyvanlar, böcəklər, bitkilər, qayalarla əlaqəli olduğuna dair biliyi inkişaf etdirməkdir. Eyni zamanda münasibət, motivasiya, idrak, qabiliyyət və bacarıqları, həmçinin müxtəlif ekoloji kontekstlərdə effektiv qərarlar qəbul etməkdir. Ekoloji savadlılıq hər kəsdən məsuliyyətli davranış tələb edir. Bir sözlə, ekoloji savadlı cəmiyyət asılı olduğu təbii mühiti məhv etməyən cəmiyyətdir. Ekoloji savadlı cəmiyyət olmaq üçün isə maariflənmə aparılmalı, doğru-dürüst məlumatlar yayılmalı, ətraf mühitlə necə davranmağın yolları açıqlanmalıdır.

Ekoloji savadlılıq termini ilk dəfə Amerika yazıçısı Frenk Herbertin 1965-ci ildə nəşr etdirdiyi "Dun" romanında işlədib. Əsərdə ata oğlu Liet-Kynesə – "sən insanlar arasında ekoloji savadlılığı inkişaf etdirməlisən" – deyərək xitab edir. Məhz həmin tarixdən etibarən bu ifadə elmin bütün sahələrində yayılmağa başlayır.

## Əsas hissə / *Main Part*

**Ekoloji savadlılığı əsaslandıran prinsiplər**

Ekoloji savadlılıq ekoloji problemlərin həllinə əhəmiyyətli töhfə verir və Yerin ekoloji cəhətdən üzləşdiyi çətinliklərdən sağ çıxmasına kömək edir. Ekoloji prinsiplər bilikləri, insanın ətraf mühitə təsirləri haqqında məlumatlılığı və davamlı təcrübələrlə məşğul olmaq bacarığını əhatə edir.

**Ekoloji savadlı olmaq:**

- Doğru qərar qəbul etməyə kömək edir;
- Tənqidi düşünmə bacarığı tələb edir;
- Təbiətlə bağlılıq məsuliyyəti aşılayır;
- Ətraf mühitə qarşı ədaləti təşviq edir;
- Yaradıcı və strateji problemlərin həllini dəstəkləyir;
- Rifahı və həyat keyfiyyətini yaxşılaşdırır;
- Sağlam elmi məlumatlılıq tələb edir [1, s.43].

**Ətraf mühit jurnalisti qlobal iqlim böhranını dayandıra bilər?**

İqlim jurnalistikası güclü sosial, iqtisadi və siyasi dəyişikliklər yaratmaq qabiliyyətinə malikdir və üzərinə böyük məsuliyyət düşür. Jurnalistlər ictimaiyyəti məlumatlandırmaq, təsirləri vurğulamaq, həll yollarını nümayiş etdirmək və effektiv siyasətləri təbliğ etməklə iqlim savadlılığının inkişafında mühüm rol oynayırlar. Onların işi mürəkkəb elmi biliklər və ictimai anlaşma arasında körpü yaratmağa kömək edir, fərdlərə və icmalara iqlim dəyişikliyinə qarşı məlumatlı tədbirlər görmək üçün səlahiyyət verir.

İqlim böhranı riski ilə üzləşən Afrika qitəsinin Zambiya adlı ölkəsindən ətraf mühit jurnalisti Muzhinga Kankindanın yanaşmasına görə, ekojurnalist təhsil və dialoq, tədqiqat və innovativ həllər vasitəsilə qlobal ekosistemdə yeni nəfəsdir. Ekojurnalistika iqlim dəyişikliyinin elmi, müsbət və mənfi təsirləri haqqında cəmiyyəti məlumatlandırandır. İqlim jurnalisti apardığı araşdırmalarda hökumətlərə, ətraf mühit təşkilatlarına onların iqlim siyasəti və təcrübələri ilə bağlı fəaliyyətlərinə və ya hərəkətsizliklərinə görə məsuliyyət daşıdıqlarını izah edir. Bu izahlar insanların, xüsusilə də iqlim dəyişikliyindən əziyyət çəkən həssas icmaların səslərini gücləndirir. Muzhinga Kankinda apardığı uzunmüddətli araşdırmalarına istinad edib deyir ki, əksər ekoloji problemlərin potensial həlli olsa da, hamısının dərhal reallaşması mümkünsüzdür. Bir-biri ilə bağlı olan istixana qazları, karbon emissiyaları, meşələrin qırılması və biomüxtəlifliyin itirilməsi kimi iqlim problemləri çoxsaylı amillərin təsiri altındadır. Hər bir problem ayrı-ayrılıqda ona səbəb olan məqamlara uyğun fərqli bir üsulla həll edilməlidir.

Muzhinga Kankinda fikrini ölkəsi Zambiyadan bir misalla davam etdirir: "Su elektrik enerjisindən bərpa olunan günəş enerjisinə keçid əhəmiyyətli investisiya və siyasi dəstək tələb edir. Lakin Zambiyanın düşdüyü iqtisadi çətinlik bu vəzifənin yerinə yetirilməsinə imkan vermir. Ölkənin su hövzələrində suyun səviyyəsinin aşağı düşməsi səbəbindən quraqlıq, aclıq və su elektrik enerjisi çatışmazlığı problemi yaranıb. Bu problemlər İqlim dəyişikliyi nəticəsində yaranıb və onlar yalnız çoxşaxəli koordinasiya kimi müdaxilə yolu ilə həll edilə bilər.

Plastik qabların ətraf mühitimizə olan təhlükələri ilə bağlı bəzi Zambiyalı sahibkarlar

plastiklərin təkrar emalını və digər istifadə edilə bilən qablara çevrilməsini təşviq edən şirkətlər yaradıblar. Supermarketlər və mağaza sahibləri ərzaq alış-verişi zamanı plastikdən istifadəni azaldıblar və kağız torbalara üstünlük veriblər". Muzhinga Kankinda bütün bunların baş verməsini ölkəsində və dünyada aparılan ekoloji savadlılıqla əlaqələndirir.

İqlim jurnalistikası qlobal iqlim böhranının həllində müxtəlif rol oynayır. Onun missiyası iqlim məlumatlılığı, təhsil və fənlərarası dialoq, tədqiqat və innovativ həllər vasitəsilə qlobal ekosistemə yenidən nəfəs verməkdir. İqlim jurnalistləri ictimaiyyəti iqlim dəyişikliyi, onun dünyaya təsirləri, həm passiv, həm də aktiv şəkildə həllinin aktuallığı haqqında məlumatlandırmaq məsuliyyətinə malikdir və insanları təbiətlə əlaqəni gücləndirməyə, ətraflarına qayğı göstərməyə təşviq edir. Bu, eləcə də insanları həm təşkilati, həm də fərdi səviyyədə ağac əkilməsi, təkrar emal, təmiz enerjidən istifadə kimi davamlılıq və mühafizə təşəbbüslərində iştirak etməyə həvəsləndirir. Digər tərəfdən, yanaşma psixi və fiziki sağlamlığı gücləndirə və sağlam həyat tərzini təşviq edə bilən təbiətlə daha dərin əlaqə vəd edir. Bu elementlərin birləşməsi qlobal ekoloji problemlərin həlli üçün çox vacib olan ekoloji cəhətdən daha şüurlu bir cəmiyyət yarada bilər.

Əslində istixana qazları, karbon emissiyaları, meşələrin qırılması və biomüxtəlifliyin itirilməsi kimi iqlim problemləri bir-biri ilə bağlıdır və çoxsaylı amillərin təsiri altındadır. Lakin bu o demək deyil ki, onlar eyni yanaşma ilə hərtərəfli həll oluna bilər. Hər bir problem ayrı-ayrılıqda ona səbəb olan amillərə uyğun fərqli üsulla həll edilməlidir.

Ekoloji savadlılıq təbiətlə əlaqə və ahəngdar münasibət yaradır. Bu əlaqə, öz növbəsində, sağlamlığı və həyat keyfiyyətini artırır. İnsanlar ətraflarını öyrəndikdə; ehtiyac duyulan və duyulmayan, lazım olanı və olmayan şeyləri bilir, eləcə də ətraf mühitə nəyin zərər verəcəyini və nəyin qoruyacağını bildikləri üçün məsuliyyət hissləri və qayğıları artır. Bu yolla insanlar ətraf mühitə qarşı ədalətsizlikləri müəyyən edə, ekoloji ədalət və davamlılıq səylərində iştirak etməyə təşviq oluna bilərlər. Nəticə etibarilə, bu vahid yanaşma ətraf mühit mövzularını müxtəlif fənlər və kontekstlər üzrə birləşdirir, ömürboyu öyrənmə və ətraf mühitdəki dəyişikliklərə uyğunlaşmanı təşviq edir.

ABŞ-ın Milli Elm Fondunun Ətraf Mühitin Tədqiqi və Təhsili üzrə Məsləhət Komitəsi hesab edir ki, elmi cəhətdən məlumatlı vətəndaşların formalaşması ekoloji təhsildə sistemli yanaşma tələb edir.

Nigeryalı müstəqil jurnalist, Media və İnformasiya Savadlılığı və Mədəniyyətlərarası Dialoq Fondunun (MILID) icraçı direktoru Çiamaka Okafor Yer Jurnalistikası Şəbəkəsinin (The Earth Journalism Network) "COP28 Dubay" proqramının qaliblərindən biri olub. Çiamaka Okaforun araşdırmalarına əsasən, ekoloji sistemdə ətraf mühitlə düzgün qarşılıqlı əlaqə qurularsa o zaman yer kürəsi ekosistemdəki bütün canlılar üçün təhlükəsiz sığınacaq olacaq. İnsan fəaliyyətinin yaratdığı iqlim dəyişikliyi və onun ətraf mühitə təsiri məhz insanların özlərinə izah olunmalıdır. Və bu ekoloji savadlılığın əsas missiyalarından biridir.

**İqlim böhranı jurnalistikanı dəyişir?**

Araşdırmaçı jurnalist və yazıçı Mark Li Hunterin fikrincə, iqlim böhranının jurnalistikaya təsiri böyükdür [9].

Mediada iqlim hadisələri ilə bağlı "hiper neqativliyə" təkrar-təkrar məruzqalma insanları mediadan uzaqlaşmağa sövq edir. Reyters (Reuters) Jurnalistikanın Tədqiqi İnstitutu və Oksford İqlim Jurnalistikası Şəbəkəsinin (OCJN) araşdırmalarına əsasən, insanların 36 faizi (bir çox ölkələrdə isə 40 faizdən yuxarı) ümumiyyətlə xəbərlərdən, xüsusilə də iqlim xəbərlərindən qaçır. Səbəb, xəbərin onları depressiyaya salmasıdır. "Həddən artıq" neqativ materiallar araşdırmaçı jurnalistlər üçün də travmatik olur.

İqlim jurnalistindən öz araşdırmasında sona kimi neytral, obyektiv qalmaq tələb olunsa da, bəzən araşdırmalarının sonunda tərəf tuturlar və bu tərəftutma yekunda bir nəticə yaradır: iqlim böhranını daha da dərinləşdirir.

**İqlim jurnalistinin araşdırmasında:**

- Elmilik, beynəlxalq yanaşmalar olmalı;
- İctimaiyyət obyektiv məlumatlandırılmalı;
- İnformasiya Texnologiyalarından (IT alətlərindən) istifadə bacarıqları olmalıdır.

Eyni zamanda:

**Uğur hekayələrinin nümayişi:**

- İqlim siyasətində boşluqların aşkar edilməsi;
- Yanlış məlumatlara qarşı mübarizə;
- Faktların yoxlanılması;
- Dialoqun asanlaşdırılması;
- Operativlik və optimizmin balanslaşdırılması;
- Skeptizmlə mübarizə;
- Dürüstlüyün və müstəqilliyin qorunması – ekojurnalistin iş prinsipinin əsasını təşkil edir.

İqlim elminin daha geniş təhsil standartlarına inteqrasiyası, mediada və ictimai diskusiyalarda iqlim problemlərinin çox görünməsi iqlim savadlılığının artırılması üçün davamlı səyləri əks etdirir. Rəqəmsal media, onlayn kurslar, sosial media kimi texnologiyalar və platformalar məlumatlılığın yayılmasında və insanların iqlim məsələlərinə cəlb edilməsində mühüm rol oynayır. Bütövlükdə, iqlim savadlılığı elmi narahatlıqdan geniş ictimaiyyətin məlumatlılığı və cəlb olunması ilə əsas qlobal problemə çevrilib. İndi problem bu məlumatlılığı qorumaq və gücləndirmək, eyni zamanda onu effektiv fəaliyyətə çevirməkdir.

Ekoloji problemlər haqqında məlumatları elm, tarix, ədəbiyyat, incəsənət, etika və s. sahələr də daxil olmaqla müxtəlif mənbələrdən əldə etmək mümkündür. Bu məlumat daha sonra gündəlik həyata, iş yerlərinə, icmalara tətbiq edilə bilər. Bundan əlavə, ekoloji savadlılıq dəyişən ətraf mühit şəraiti və çağırışlarına uyğunlaşan davamlı və dayanıqlı öyrənmə prosesini də əhatə edir (UNESCO, 2017). Ətraf mühitlə bağlı ən son xəbərlərdən, tədqiqat və innovasiyalardan məlumatlı olmaqla hərəkət və davranışları buna uyğun tənzimləmək vacibdir [7].

**Ekoloji maarifləndirmənin tələbləri:**

- Sağlam elmi məlumat;
- Tənqidi düşünmə bacarığı;
- Yaradıcı və strateji problemlərin həlli;
- Qərarvermə bacarığı.

Ekoloji savadlılıq həlli ekoloji, iqtisadi və sosial sabitliyi təmin edən problemləri fərdi və kollektiv şəkildə aradan qaldırmaq üçün bilik, bacarıq və qabiliyyətə sahib olmaq deməkdir. Ekoloji savadlılıq təkcə təhsil və məlumatlılığı deyil, eyni zamanda mədəniyyətimizi, dəyərlərimizi və ətraf mühitə münasibətdə davranışımızı əhatə edir. Ekoloji savadlılıq zaman-zaman və ya qəfil yaşanan iqlim dəyişikliklərini bir ömür boyu öyrənmə, maariflənmə və əməletmə prosesidir [14].

## Nəticə / *Conclusion*

Ekoloji, iqlim və ya ətraf mühiti savadlılığı daha çox jurnalistikaya aid edilir ki, bunun da bir sıra səbəbləri var. İlk olaraq jurnalist – iqlim jurnalisti iqlim böhranı ilə bağlı birbaşa xəbər yayandır. Buna görə də onun istehsal etdiyi və cəmiyyətə ötürdüyü məlumatlar obyektiv, neytral olmaqla yanaşı, həm də maarifləndirici xarakter daşımalıdır. Jurnalist yaydığı xəbərlərdə xüsusilə də vizual xəbərlərdə insanlara, cəmiyyətlərə daha çox neqativ, psixoloji təsir göstərməməlidir. Yayılan xəbərlər, görüntülər insanlara travmatik yox, maarifləndirici təsir göstərməlidir. Bir ölkədə baş verən iqlim böhranı və ondan əldə olunan nəticələr, görülən tədbirlər, başqa bir cəmiyyət, ölkə üçün nümunə olmalı və qabaqlayıcı tədbirlərə yol açmalıdır. Son dövrlər dünyanı iqlim dəyişikliklərindən xilas etmək üçün keçirilən beynəlxalq tədbirlər daha da intensivləşməkdədir və bu heç də təsadüfi deyil. Böhranın miqyası böyüdükcə, ona olan diqqət də tədricən artır. Belə təşəbbüslərdən biri, ən qlobalı isə Tərəflərin Konfransı (COP) adlı tədbirdir. Hər il müxtəlif ölkələrdə reallaşan COP-lara iqlim jurnalistləri məxsusi dəvət olunur, onlar cürbəcür təqaüd proqramlarında iştirak edir. Nəticədə İqlim jurnalistlərinin fəallığı daha da artırılır və onlar bu konfranslarda müxtəlif ölkələrlə sıx əməkdaşlıq etməklə planetə daha çox fayda verirlər.

Planetimizdəki mövcud vəziyyətdən, iqlim dəyişikliyinin səviyyəsindən çıxış edərək bildiririk ki, iqlim jurnalistlərinin icmalarda, cəmiyyətlərdə fəallığı daha da artırılmalıdır. Bu jurnalistlərə ayrıca təkmilləşmə kursları keçilməli, eyni zamanda onların maarifləndirici çıxışları yayılmalıdır.

Bir sözlə, iqlim dəyişikliyi ilə bağlı maarifləndirmənin ən yaxşı yolu cəmiyyətin məlumatlı olmasını təmin etməkdir. Məlumatlı

cəmiyyət iqlim dəyişikliyinə qarşı ən güclü silahdır. Bu məsələdə məhz ekoloji jurnalistlər mühüm rol oynayırlar; onlar insanları məlumatlandırır və maarifləndirirlər.

## Ədəbiyyat / *References*


1. Almaz Mahmud. Media savadlılığı jurnalistlər üçün. – Bakı, 2022.
2. Bülent Çaplı, Nüşabə Hüseynli, Xatirə Hüseynova, Aynur Kərimova, Zeynal Məmmədli, lamiyə Vəzirova. Televiziya Jurnalistikası. Avropa Şurası, 2017.
3. Capaldi, C.A., Dopko, R.L., and Zelenski, J.M. (2015). The relationship between nature connectedness and happiness: A meta-analysis. Frontiers in Psychology, 6: 976.
4. Kahn Jr., P.H., and Kellert, S.R. (Eds.). (2002). Children and nature: Psychological, sociocultural, and evolutionary investigations. MIT Press.
5. NAAEE (North American Association for Environmental Education). (2011). Developing a framework for assessing environmental literacy. Washington DC: NAAEE.
6. UNEP (United Nations Environment Programme). (2016). Global citizenship & environmental rights: A report on education for sustainable development in formal education in Latin America & Caribbean region. Nairobi: UNEP.
7. UNESCO (United Nations Educational, Scientific and Cultural Organization). (2017). Education for sustainable development goals: Learning objectives. Paris: UNESCO.
8. UNESCO (United Nations Educational, Scientific and Cultural Organization). (2019). Education for sustainable development: A roadmap. Paris: UNESCO.
9. https://group.vattenfall.com/press-and-media/newsroom/2024/an-investigative-journalist-admits-i-was-wrong)
10. https://oelp.oregonstate.edu/oelp-plan/what-environmental-literacy
11. https://www.linkedin.com/pulse/environmental-literacy-why-its-important-muzhinga-kankinda/
12. Journalism : Environment & climate change | Adrian de Vernou | TEDxSacredHeartSchoolsAtherton
13. https://www.youtube.com/watch?v=dtzpZqBntys
14. Environmental Journalist: Living in a climate of war | Afia Salam | TEDxIslamabadStudio


## Климатическая журналистика как важный коммуникационный инструмент


**Алмаз Насибова**
Доктор философии по филологии
E-mail: almazmahmud@gmail.com



**Резюме.** Экологическая или экограмотность – это способность понимать природные системы, которые делают жизнь возможной на Земле.

Именно журналистика, в особенности климатическая журналистика (экологическая или экожурналистика), играет незаменимую роль в правильном донесении этой природной системы до людей и общества.Потому что журналистика способна создавать сильные социальные, экономические и политические изменения.

Климатически грамотный человек – это тот, кто понимает основные аспекты системы Земли и способный отличить надежный источник от ненадежного, поддельного источника.

Включение экограмотности в систему образования позволяет вырастить на Земле информированное и заинтересованное поколение, тем самым обеспечивая устойчивое будущее.



**Ключевые слова:** экологическая грамотность, климатическая журналистика, экограмотность, климатический кризис, дезинформация